# Azərbaycan Respublikası Prezidentinin Sərəncamları

2007-ci il

- "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xidmətləri olan şəxslərin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(19 fevral 2007-ci il)*

- "Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 mart tarixli 1369 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ağdam, Bərdə və Tərtər rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər planı”nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(16 avqust 2007-ci il)*

- Hacıqabul rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(29 avqust 2007-ci il)*

- Neftçala rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(29 avqust 2007-ci il*

- Yevlax şəhərinin və Qobustan rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı *(25 oktyabr 2007-ci il)*

## Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xidmətləri olan şəxslərin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xidmətləri olan aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Babayev Əmir Baxşəli oğlu
Babayev Səyyad Həbib oğlu
Dadaşova Elmira Qoçəli qızı
Əliyev Elşad Məmmədqulu oğlu
Əliyev İbrahim Səfər oğlu
Hüseynov Həbib Əli oğlu
Məmmədov Nizami Tahir oğlu
Mürsəlova Naibə Hüseyn qızı
Nağıyeva Afət Əjdər qızı
Seyidov Nəriman Lətif oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 fevral 2007-ci il.

# Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 mart tarixli 1369 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ağdam, Bərdə və Tərtər rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər planı"nda dəyişiklik edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikasının Ağdam rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 iyun tarixli 2253 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 24 mart tarixli 1369 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 3, maddə 258) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ağdam, Bərdə və Tərtər rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı"nın 1.1-ci bəndinin "Tədbirin adı" sütununda "Quzanlı kəndində" sözləri "Quzanlı qəsəbəsində" sözləri ilə əvəz edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 avqust 2007-ci il

## Hacıqabul rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Hacıqabul rayonunun sosial-iqtisadi inkişafı istiqamətində görülən tədbirlərin həyata keçirilməsi, o cümlədən abadlıq-quruculuq işlərinin sürətləndirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2007-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Hacıqabul Rayon İcra Hakimiyyətinə 1,0 milyon (bir milyon) manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan vəsaitin ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 avqust 2007-ci il

## Neftçala rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Neftçala rayonunun sosial-iqtisadi inkişafı istiqamətində görülən tədbirlərin həyata keçirilməsi, o cümlədən abadlıq-quruculuq işlərinin sürətləndirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2007-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Neftçala Rayon İcra Hakimiyyətinə 1,0 milyon ( bir milyon) manat məbləğində vəsait ayrılsın.

2. “Azəriqaz” Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə birlikdə Neftçala rayonunun təbii qazla təchiz edilməsinin yaxşılaşdırılması üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan vəsaitin ödənilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 avqust 2007-ci il

## Yevlax şəhərinin və Qobustan rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Yevlax şəhərinin və Qobustan rayonunun sosial-iqtisadi inkişafı istiqamətində görülən tədbirlərin həyata keçirilməsi, o cümlədən abadlıq-quruculuq işlərinin sürətləndirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2007-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Yevlax şəhər İcra Hakimiyyətinə 3,0 milyon (üç milyon), Qobustan rayon İcra Hakimiyyətinə 1,5 milyon (bir milyon beş yüz min) manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulan vəsaitin ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 oktyabr 2007-ci il